Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq olar.
Avtoreferat "____" _____ 2016-cı il tarixində göndərilmişdir.

**D.02.71 Dissertasiya Şurasının elmi katibi** filologiya üzrə fəlsəfə doktoru, dosent
**Muqimova N.**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Dünya ədəbiyyatı tarixində elə yazıçılar var ki, onların yaradıcılığı mənəvi dərkin üfüqlərini əhəmiyyətli dərəcədə genişləndirir. Bu yalnız sırf milli deyil, eləcə də ümumbəşəri xarakter daşıyır. Çünki bu yazıçıların yaradıcılıqları bir tərəfdən müasir dövrü əks etdirir, digər tərəfdən isə, ədəbiyyat və mədəniyyətin daha da inkişaf etdirilməsi perspektivlərini müəyyən edir. Belə yazıçılar sırasına Rusiyada L.N.Tolstoy, Fransa da isə E.Bazen daxildir.

Həm rus, həm də fransız yazıçısının ədəbi irsi böyük və çoxşaxəlidir, lakin biz öz diqqətimizi onların yaradıcılığındakı ailə mövzusunun müqayisəli təhlilində cəmləşdirmişik. Bu çox mühüm və aktual bir məsələdir. Birincisi, XIX və XX əsrlərdə rus və fransız realist nəsri arasında güclü davamçılıq xüsusiyyəti vardır. İkincisi, L.Tolstoyun sevgi, ailə və niğah mövzularının inkişafında fransız yazıçılarının yaradıcılıqlarına, xüsusilə də realist-yazıçı Erve Bazenə təsiri birmənalıdır. Üçüncüsü, ümumi semantik qatlar aşkarlanır, yəni bu yazıçıların əsərlərində leksik-semantik əlaqə nöqtələri vardır. Dördüncüsü, vahid ailə-məişət problemi də formaların müxtəlifliyindən, həm də yazıçıların analoji yanaşmalarından xəbər verir. Yazıçıların üslub orijinallığı, öz növbəsində, xoşbəxt və ya bədbəxt ailənin müəyyən edilməsində fərdi qiymətləndirmə sistemi və bədii asosiasiyalar təklif edir. Yuxarıda qeyd olunanlar seçilmiş tədqiqat işinin mövzusunu aktual və zamanında hesab etməyə imkan verir.

**Tədqiqatın predmeti.** Ailə problemi Tolstoy və Bazenin dünyagörüşündə mərkəzi yer tutur. Rus yazıçısı bu mövzuya "Anna Karenina" romanını və bir neçə povestini həsr etmişdir ("Sahibkarın səhəri", "Ailə xoşbəxtliyi", "Kreytser sonatası", "İvan İlyiçin ölümü" və başqaları). E.Bazen Fransa ədəbiyyatı tarixində "Rezo ailəsi" və "Ailə həyatı" kimi geniş ailə silsiləsinin müəllifi kimi yer almışdır. Bu əsərlərdə, rus və fransız yazıçıları sevgi və bütövlükdə ailəyə aid olan fikirlərini ifadə etmişlər; xüsusilə, nikaha daxil olan gənclərin xarakterinin təkamülü, münaqişələr və onlardan çıxış yolları göstərilmişdir. L.N.Tolstoy üçün ailə doğma evə qayıtmadan mümkünsüzdür. Bundan başqa, ədəbi qəhrəman evə pislikdən

təmizlənmiş qayıtmalıdır. Vətən xronotop xarakteri qazanır. L.N.Tolstoyun dünyagörüşünə görə, yalnız dinə bağlı insan ailə həyatında mərhəmətli ola bilər. Tolstoya görə, yalnız yüksək mənəviyyatlı, mənən zəngin və təkmilləşmiş şəxsiyyət müəyyən mənada "ideal ailə başçısı" etalonuna yaxınlaşa bilər.

E.Bazenin yaradıcılığında dini baxışlar o qədər də gözə çarpmır, və buna görə də ailə probleminin təsvirində az və qərəzsiz şəkildə verilir. Yazıçı üçün hər bir vəclə kənar zorakılıqdan özünü azad etməyə çalışan əsas qəhrəmanın üsyanının mənşəyini aşkara çıxarmaq çox vacibdir. Gənc üsyanının subyektiv dərkindən prinsip etibarı ilə yeni, müstəqil bir həyat başlayır. Eləcə də yazıçını ailədaxili münasibətlər, ünsiyyətdə ahəngsizlik və ailənin məhv olma səbəbləri narahat edir. Bu E.Bazen yaradıcılığının əsas istiqamətlərindəndir və adıçəkilən romanlarında öz əksini tapmışdır.

**Tədqiqatın obyekti**. Tədqiqatın əsas obyekti L.N.Tolstoyun roman və povestləri ("Anna Karenina", "Ailə xoşbəxtliyi", "İvan İlyiçin ölümü", "Kreytser sonatası" və digər əsərlər) və E.Bazenin ailə mövzusuna həsr olunmuş əsərləri (trilogiya "Rezo ailəsi", "Ailə həyatı").

**Mövzunun işlənilmə dərəcəsi**. Müraciət etdiyimiz mövzu filologiya elmində xüsusi tədqiqat obyekti olmuşdur. İlk növbədə A.İ.Herbstmanın, B.M.Proskurinanın, A.Puzikovanın, E.P.Kuçborskayanın, B.Q.Reizovanın, D.Oblomiyevskinin, S.Braxmanın, L.Qedışinanın, Y.M.Yevninanın, T.V.Balaşovanın, E.V.Dubinskayanın, Azərbaycan tədqiqatçılarından isə M.Q.Qocayevin, F.Ç.Rzaevin, N.C.Məmmədxanovanın, D.Z.Hacıyevanın, S.Vahabovanın qeyd etmək lazımdır. E.Bazenin yaradıcılığı üzrə xüsusi işlərdən isə aşağıdakıları sadalamaq olar: P.Moustier «Metamorphoses du roman», V.Alberes «Herve Bazin ou le romancier en movement», J. Anglade «Herve Bazin», M.Arland «Lettres de France» M. Arlette «Structures romanesques et problemes du manage dy Indiana a La Comtesse de Rudaulfchtat» və başqaları. Lakin, Tolstoyun və Bazenin yaradıcılığına aid bu və digər tədqiqat işlərində birbaşa ailə problematikasının müqayisəli təhlili ilə bağlı yalnız bəzi məlumatlar verilir. Bu günə qədər filologiya

elmində mövzunu əhatə edən vahid və əhatəli tədqiqat işi yoxdur. Belə ki, seçilmiş mövzu yeni araşdırmalar tələb edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi L.Tolstoyun və E.Bazenin müxtəlif janrlara aid əsərlərində ailə mövzusunun inkişafı baxımından mənəvi-etik, bədii-estetik ideалların göstərilməsidir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı əsas **vəzifələr** müəyyənləşdirilir:

1. L.N.Tolstoyun və E.Bazenin əsərlərində ailə problematikasının fərdi xüsusiyyətlərini göstərmək.

2. L.N.Tolstoyun və E.Bazenin romanlarında ailə-məişət mövzusuna xüsusi nəzərə yetirmək, paralel olaraq Rusiya və Fransada sevgi və nikah institutuna müxtəlif münasibəti əsaslandırmaq.

3. Ər-arvad arasındakı psixoloji münasibətlərin qorunub-saxlanılmasına dair L.N.Tolstoyun və E.Bazenin əsas ideyalarını müqayisə etmək.

4. E.Bazenin ailə trilogiyası və L.N.Tolstoyun romanları arasında analogiya apararaq xarakterlərin təkamülünü izləmək.

5. L.N.Tolstoyun və E.Bazenin əsərlərində sevgidə seçim azadlığı ilə bağlı əsas fəlsəfi məsələləri təyin etmək.

**Tədqiqat işinin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan filologiya elmində ilk dəfə olaraq L.N.Tolstoyun və E.Bazenin Təqdim olunmuş dissertasiyada təsvirçilik elementləri minimuma endirilmişdir; bütün diqqət romanlarının müqayisəli təhlilinə yönəldilmişdir.

**Tədqiqat işinin metodu**. Qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün müqayisəli tipoloji təhlili metodundan və müxtəlif növ əlavə məlumatları daha dəqiq izah etmək üçün filoloji kommentari üsulundan istifadə olunmuşdur.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti.** Tədqiqat işində ilk dəfə olaraq L.N.Tolstoyun və E.Bazenin yaradıcılığında ailə problematikasının araşdırılmasına cəhd göstərilir. Dissertasiya işində əldə olunmuş nəticələr gələcək tədqiqatlar üçün L.N.Tolstoyun və E.Bazenin yaradıcılığının müqayisəli şəkildə öyrənilməsi haqqında məlumatı daha da təkmilləşdirir.

Təqdim edilmiş dissertasiya işində ədəbi-tənqidi təhlilə müxtəlif dövrlərdə yaşamış yazıçılar cəlb olunmuşdur. Təbii ki, hər bir yazıçının bütün məsələlər üzrə fərdi konsepsiyası, ədəbi-tarixi və fəlsəfi yanaşma sistemi vardır. Xüsusi ilə də, sevgi, evlilik və ailə mövzusu baxımından rus və fransız yazıçılarının fərdi və nəzəri aspektdən hamı tərəfindən qəbul olunmuş fərqli mənəvi yanaşmaları vardır. Belə ki, vahid mövzunun müxtəlif çalarları problemin həllinin ehtimal axtarışlarını gücləndirir. Bu qərarlardan irəli gələn nəticə və ümumiləşdirmələrin mühüm nəzəri dəyəri var.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın əsas müddəaları və nəticələri L.N.Tolstoyun və E.Bazenin əsərlərinin öyrənilməsində, filologiya və tarix fakültələrində Dünya ədəbiyyatından mühazirə kurslarında, eləcə də XIX-XX əsrlər rus və Avropa ədəbiyyatı tarixinin tədrisi üzrə dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Ailə problemi L.N.Tolstoyun və E.Bazenin əsərlərində əsas yer tutur. L.N.Tolstoyun "Anna Karenina", "Ailə xoşbəxtliyi", "İvan İlyiçin ölümü", "Kreytser sonatası" və E.Bazenin "Rezo ailəsi" və "Ailə həyatı" əsərləri bilavasitə ailə mövzusuna həsr olunmuşdur. Rus və fransız yazıçılarının hər ikisi ailə münasibətlərində harmoniya və analıq hissinin vacib olması fikrində yekdildirlər. Lakin, yuxarıda göstərilən mövzuya yazıçıların yanaşmaları heç də eyni deyil. L.N.Tolstoy hesab edirdi ki, yalnız mənəvi təkmilləşmə vasitəsilə yaxınına qarşı sevgi hissi mümkündür. E.Bazen isə, ailənin möhkəmliyini sosial əlaqələrin təkmilləşdirilməsində, ailədə gənc nəslin bərabərlik və seçim azadlığında görürdü.

2. Ailə-məişət problematikası XIX-XX əsr bir çox Avropa yazıçılarının diqqət mərkəzində idi. Bu məsələyə dəfələrlə Onore de Balzak, H.Flober, E.Zolya, G.de Mopassan və digərləri müraciət etmişlər. Ancaq E.Bazenin əsərlərində bu mövzuya psixoloji yanaşma hiss olunur və bu baxımdan o, L.N.Tolstoyun dünyagörüşünə yaxın və əziz idi;

3. Erve Bazen "Rezo ailəsi" romanında ailə böhranından real və konkret çıxış yolunu əsas qəhrəmanın üsyanında, onun qətiyyətlə kübar ənənələrinə qarşı

çıxmasında görür. Fransız realist yazıçısının fikrincə, "atalar və oğullar" əbədi konflikti məhz bu yolla həll olunur. L.N.Tolstoy isə, öz növbəsində, xilası insanın ilahi başlanğıcının möhkəmləndirilməsində görür. O, düşünür ki, insan şəhvani ehtiraslar arxasınca getməməlidi;

4. Erve Bazen "Ailə həyatı" romanında, sevgidə və münasibətlərdəki bütün çətinliklərə, ziddiyyətlərə rəgmən, ailədə həyat yoldaşları arasında olan münasibətləri dəyişmək imkanını verir. Tolstoy üçün ailə, sevgi və evlilik problemlərinin həlli ilk növbədə, dünyanın dini-mənəvi baxımda dərk olunmasındadır; Bazen üçün isə, ümumilikdə həyat problemlərinə sosial-rasionalist yanaşmadadır.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işinin nəticələri ilə bağlı Bakı Slavyan Universitetinin Dünya ədəbiyyatı kafedrasının iclaslarında, Respublika və Beynəlxalq konfranslarda məruzələr edilmiş, bilavasitə tədqiqat mövzusu ilə bağlı Azərbaycan Respublikası, Ukrayna ədəbi jurnallarında 6 məqalə çap etdirilmişdir.

**Dissertasiya işinin quruluşu.** 160 səhifədən ibarət olan dissertasiya giriş, 2 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya mövzusunun aktuallığı, məqsəd və vəzifələri əsaslandırılaraq müəyyənləşdirilir, tədqiqatın obyekti, predmeti və elmi yeniliyi dəqiqləsdirilir, onun nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, eləcə də tədqiqatın yerinə yetirilməsində istifadə olunan metodika, tədqiqat işinin aprobasiyası təqdim olunur.

Dissertasiyanın **birinci fəsli "L.N.Tolstoyun və E.Bazenin dünyagörüşü işığında mənəvi-estetik ideallar"** adlanır və iki hissədən ibarətdir. Bu fəslin birinci yarımfəslində L.Tolstoyun əsərlərində ailə mövzusunun inkişafından bəhs olunur. Qeyd etmək lazımdır ki, bu problem bir sıra böyük rus və fransız yazıçılarının diqqət mərkəzində olmuşdur. Bu yazıçılardan hər biri ailənin yaradılmasını və xüsusilə də, konkret sosial şəraitdə onun dağılmasını şərtləndirən səbəbləri araşdırmışlar. A.Puşkin ilk növbədə "Yevgeniy Onegin" əsərində bu problemi XIX

əsrin əvvəllərində xarakterlər romanının yaradılması işığında qaldırmışdır (Larinlər ailəsi "rolları paylanmış bir özəkdir"). M.Y.Lermontov "Zəmanəmizin qəhrəmanı" romanında əsas qəhrəmanın eqosentrikliyi nəticəsində ailə münasibətlərin alınmamasını göstərmişdi. (Peçorin, "bütün nəslin qüsurlar portreti" təcəssümü kimi verilmişdi). N.V.Qoqolun "Ölü canlar" əsərində ailədəki ədəb-ərkan formal xarakter daşıyır, lakin ümumi cəhalət və mədəniyyətsizlik müəllifin acı istehzasına tuş gəlir. A.N.Ostrovskinin dramlarındakı "Öz adamlarımız" "bataqlıq çirkabına batmış gəclərdir".

Fransız ədəbiyyatında da ailə və ya ailədaxili münasibətlər eyni kompozisiya sxemi üzrə verilmişdir. Bu mövzu çoxcıldli ailə silsilə romanlarında müxtəlif nəzər nöqtəsindən verilmişdir. (R. Rollan "Jan Kristoff", Roje Martin du Qar "Tibo ailəsi", Jorj Düamel "Paskye ailəsinin xronikası", Jak Lakretel "Hündür körpülər", Filip Eria "Bussardel ailəsi", Moris Drüon "Bu dünyanın güclüləri", Andre Vürmser "İnsan dünyaya gəlir", Henri Truayya "Eqletyer ailəsi" və digərləri). Bundan başqa, bu mövzu Onore de Balzakın, E.Zolyanın, H.Floberin, Gi de Mopassanın və digərlərinin bəzi (silsilə olmayan) əsərlərində inkişaf etdirilmişdir. Sadalananlar arasında Erve Bazenin "Rezo ailəsi" və "Ailə həyatı" romanları bizim tədqiqatımızda mərkəzi yer tutur, çünki ilk növbədə müəllifin fəlsəfi prinsipləri və iş metodologiyasına görə L.N.Tolstoyla dərin əlaqələr var. Məhz Erve Bazenin yaradıcılığı bizim fikrimizcə, L.N.Tolstoy sevgi, evlilik və ailə mövzusuna psixoloji yanaşmasına və rus yazıçısının yaradıcı qavrama fəlsəfəsinə daha yaxındır.

Bizim fikrimizcə, ailə problematikasının inkişafı tarixinə bu qısa ekskurs ilk növbədə, bu mövzunun rus və fransız ədəbiyyatında vacib yer tutması barədə danışmağa imkan yaradır. İkincisi, bu mövzu heç də yeni deyil ki, və qeyd etməliyik ki, hər bir tarixi dövr üçün onun bir neçə müvafiq həlli variantları mövcud idi. Üçüncüsü, L.N.Tolstoy və Erve Bazenin əsərlərinin müqayisəli təhlilinə zəmin yaradır. Yuxarıda qeyd olunanları ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar ki, rus və fransız ədəbiyyatında ailə mövzusunun təsvirində insanın xarakterin və

hisslərinin inkişafını müşahidə etmək olar. Elə bu da XIX və XX əsr yazıçılarının ailə mövzusuna olan marağını izah edir.

Bu baxımdan biz ailə problematikasının təhlilinə L.N.Tolstoyun yaradıcılığından başladıq. Bizim diqqətimizi əlbəttə, "Anna Karenina" romanı cəlb etdi. Lakin, eləcə də qeyd etmək lazımdır ki, bu böyük romandan da əvvəl yazıçı, sevgi və evlilik və bir çox "ailə ətrafı" problemlərlə bağlı əsərlər yazmışdır. Biz, bu mövzuya qismən də olsa "Sahibkarın səhəri", "Lütsern" povestlərində, "Albert" hekayəsində və s. əsərlərdə qarşılaşırıq. Doğrudur, L.N.Tolstoy, yaradıcılığının erkən mərhələsində ictimai həyatın müxtəlif sahələrində ortaya çıxmış "parlaq ziddiyyətlər"dən uzaq dura bilməzdi. Tolstoy "yaxşı" və "pis" antinomiyaları arasında orta məxrəci tapmaqda əziyyət çəkirdi.

Bunun necə baş verəməsi haqqında V.Korelenko qeyd edirdi: "Tolstoyun bütün mənəvi sarsıntılarının tarixi, mənim fikrimcə, vahidliyin və ruhun harmoniyasının acgözlüklə axtarışına yönəlib"[7]. O, ilk dəfə "Ailə xoşbəxtliyi" povestində bizi maraqlandıran problemə müracıət edir.

Adı çəkilən povestin yaradılması zamanı müəllifin yaradıcılığında bədii əhəmiyyət daşıyan, "Anna Karenina" romanında və digər irihəcmli epic əsərlərdə izlənilən "qəlbin dialektikası" anlayışı hələ meydana gəlməmişdi. Psixoloji təhlil L.N.Tolstoy üçün hələ də üstünlük təşkil edir. Müəllif, gənclər arasındakı sevgi hissinin artmasını müşahidə edir. Eyni zamanda, o, gələcək evlilik həyatında çox ciddi fəsadlara gətirib çıxaran münasibətləri dərk edir. Məhz burada yazıçı, bəlkə də ilk dəfə olaraq eşq və əsl sevgi hissi arasındakı böyük fərqi göstərməyə çalışır.

"Ailə xoşbəxtliyi" əsəri yalnız bir ailə problematikasının inkişafının başlanğıcı deyil, bu əsər həm də nə qədər də paradoksal olsa belə özünəməxsus "fəlsəfə daşının" axtarışı kimi təsvir edilmiş, lakin tezliklə böyük insan dramına çevrilmiş "ziddiyyətlər harmoniyası" ideyasına müraciət idi.

Tolstoya görə, həyat, ölümün o biri üzüdür, onun son nöqtəsidir. Buna görə də, sevginin dərin daxili ziddiyyətləri haqqında düşündükcə, tədricən ailəni "Ailə

[7] Короленко В.Г. Полн. собр. соч. в 5-ти томах. Т.1. Ленинград: СПб, 1954, с.307

xoşbəxtliyindəki" kimi, bəlkə də, anlaşılmazlıqlardan və mübahisələridən azad olma yolunu ölümə keçiddə görürsən.

Beləliklə, sevgidə anlaşmanın çox çətin, ziddiyyətli və tikanlı yollardan keçməsi və yazıçının özü üçün evlilik həyatının bədii əsərdə əks etdirilməsinin heç də asan olmaması göz qabağındadır. Və illər ərzində "Ailə xoşbəxtliyindəki" xəyali sevgidən bu mövzu inkişaf edərək, bir zəncir kimi ölüm mövzusunadək uzanır. Əlbəttə ki, müəllifin şəxsi etirafı şəklində əlavə şərh də var idi. Əks halda, belə bir gözlənilməz süjet xəttini həyata keçirmək Tolstoyun özü üçün də çətin olardı. Birincisi, o, ciddi olaraq ailə həyatı fəlsəfəsi haqqında düşünür: əvvəlcə "Həyat haqqında" pamfleti işıq üzü görür, sonra "Ölüm süjetin problem kimi" məqaləsi çıxır. İkincisi, antisevginin son formulası "İvan İlyiçin ölümü" hekayəsində inkişaf etdirilir.

Tolstoyun yaradıcılığındakı ailə mövzusu ilə bağlı yeni baxışlar, dramatizm çalarları ədəbi tənqidin də nəzərindən qaçmamışdı. Biz, dissertasiya işində N.M.Şişxovanın, Y.M.Lotmanın və digərlərinin əsərlərindən misallar gətimişik. N.M.Şişxovanın fikrincə "ölüm ədəbi süjetin strukturunda mənaverici funksiyadaşıyır", Y.M.Lotman isə "ölümun tanatoloji probleminə" toxunur. Eyni zamanda, bir çox tədqiqatçılar hələ də bu povestin ailə problemi çərçivəsindən kənara çıxmadığını deyirlər, çünki bütün süjet mövzuları məhz bu məsələyə yönlənir (əsərin finalında İvan İlyiç "Ölüm yoxdur" deyir).

Ailə mövzusunun inkişafında növbəti mühüm addım, bizim fikrimizcə, "Kreytser sonatası" povestini hesab etmək olar. Məhz bu əsərdən sonra "qəlb dialektikası" prinsipi artıq tam gücü ilə inkişaf edir. XIX əsrin rus cəmiyyətində evliliklə birlikdə hökumətin leqallaşdırdığı fahişəlik və kişi özbaşnalığını L.N.Tolstoy çox gözəl təsvir etmişdir. Heç təsadüfi deyil ki, povestin əsas qəhrəmanı Pozdnışev deyir: "Bizim yuxarı təbəqənin həyatı olduğu kimi, bütün çılpaqlığı ilə, böyük bir fahişəxanadır". Povestin təhkiyyəsi onbeşyaşlı gənc Pozdnışevin pis yola cəlb edilməsi anından başlayır və final səhnəsində ona mənən yad olan həyat yoldaşının öldürməsi ilə bitir.

“Kiçik janrda” ailə problemi burada öz apogeyinə çatmışdır; artıq sırf milli çərçivədən çıxaraq, ümumbəşəri əhəmiyyət qazanır. Saxta nigahları və ailələri təsvir edərək yazıçı, illər keçdikcə cütlüklərin dağılmasını və nigahların yalnız formal xarakter daşıdığını nümayiş edir. L.N.Tolstoy, bu povestdə öz fəlsəfi fikirlərini və sevginin mənəvi-estetik tərəfini göstərir. Obyektiv mənanın vahidliyi onun subyektiv niyyət genişləndirir. Əslində, ailənin, sonradan “Anna Karenina” əsərində təsvir edildiyi kimi, bir çox xoşbəxt və bədbəxt ailələri bir araya gətirən bir institutdu.

Bu dahi romanda, dissertasiyada diqqətimizi çəkən və təhlil olunan bütün povestlərin əsas ideyaları öz əksini tapıb. Mübahisəsiz faktdır ki, romanda bir çox aktual məsələlər qaldırılır, və bunun haqqında kifayət qədər ədəbi-tənqidi və monoqrafik işlər də vardır. Biz hesab etdik ki, bütün diqqətimizi məhz ailə mövzusuna yönəldək. Bu mövzu bizim tədqiqatda Tolstoyun mərkəzi fəlsəfəsi ilə bağlıdır, yəni insanda iki başlanğıcın – mənəvi və heyvani hisslərin olmasını, bəzən isə onların arasındakı mübarizədə heyvani hisslərin üstün gəlməsini qeyd edir.

Rusiya, Azərbaycan və Avropa tənqidçiləri hər yeni dövrdə “Anna Karenina” romanının janrının başqa cür müəyyən edirdilər. Bəziləri bu romanı ailə-məişət, digərləri psixoloji, üçüncülər fəlsəfi janra aid edirdilər. Biz də, öz növbəmizdə ailə-sosial, mənəvi-etik, sosial-ifşaedici və psixoloji sahələrin sintezi kimi, “qarışıq” şəklini qəbul edirik.

Xarakterlər qalereyası aşağıdakı kimi verilir: Anna sevgi olmadan öz mövcudluğunu təsəvvür edə bilmir, sevgi onun üçün sığınacaqdır, sevinc və iztirabdır. O, sevgi üçün yaranıb və onun yolunda nə sosial problemlər gözə görünür, nə də onları həll etməyə ehtiyac duyulur. Konstantin Levin “əvvəl ailəni təsəvvür edir, sonra isə ona bu ailəni verəcək qadını”. Levin və Kitinin sevgisi maddi qayğılara bürünmüşdür, ailə-məişət qayğıları və ailədaxili maraqlar mənəvi və fədakar xarakter daşıyır. Levinlər də özünəməxsus xoşbəxtdirlər. Kəndli İvan Parmyonovun da ailəsi xöşbəxt cütlüklərdən sayılır, onların firavan həyatı sıx əmək əlaqələri ilə müəyyən edilir. Nəhayət, Tolstoy üçün ideal ailə Şerbatskilərdir.

Buna görə də, Anna sadalanan xöşbəxt cütlüklər arasında Anna kainatın mərkəzi kimi görünür. Yazıçının ona münasibəti ikilidir: "özünüzü itirmiş, lakin günahkar olmayan". Paradoksal bir tezis irəli sürülür – Annanın subyektiv günahı bu günahın obyektiv olmaması ilə səsləşir. Annanın günahı məntiqlə əsaslandırılmalıdır, lakin subyektiv şərhə görə sevgi-ehtiras qəhrəmanın ölümünə gətirib çıxarır. Öz səmimiyyəti ilə o, Aleksey Karenin üçün heç cür yolverilməz davranışı ilə nə özünü, nə də başqalarını aldatmaq niyyətində deyil. Onun həyat yoldaşı üçün, ilk növbədə vacib olan, heç olmasa zahirən də olsa, yaşadıqları kübar cəmiyyətdə qəbul olunmuş ümumi qaydalara əməl olunsun, Rusiya həyat tərzinin, adət-ənənələrininn müəyyən şəkildə qorunsun. Nəhayət, sosial yaşam normalarının müdafiəsinə qalxmış Kareninin davranışı Anna ilə mənəvi/əxlaqsız xətti üzrə müqayisə olunur. O, hətta həyat yoldaşını bədbəxt və acınacaqlı formal evlilik həyatı düçar edərək, paralel olaraq Vronski ilə əxlaqsız münasibətlərin inkişafına göz yuma bilir.

Belə ki, Annanın ruhi əzablarının və iztirablarının dərinliyi görə, heç kəs onunla müqayisə oluna bilməz. Onun acılarının kökü xoşbəxtliyində və bədbəxt taleyindədir; sevgi idealına sədaqəti isə, analıq sevincində və ölümlə nəticələnəcək yolun başlanğıcındadır. Bu romanın bütün ailə problematikası, bir tərəfdən məhəbbətdə səmimiyyət, digər tərəfdən isə fəlakətlə nəticələnəcək həyat tərzinin arasındakı ziddiyyətlər üzərində qurulmuşdur.

"L.N.Tolstoyun fransız ədəbiyyatına təsiri" adlanan, dissertasiyasının birinci fəslinin ikinci hissəsində bilavasitə L.N.Tolstoy yaradıcılığında ailə problematikasının fransız ədəbiyyatına təsirinə həsr olunmuşdur. Bu da labüddür. Rus yazıçısının ideyalarının xarakteri və fransız yazıçıları tərəfindən qavranması müxtəlif ola bilər, lakin onların qaldırdığı məsələlərin həllində rus klassikinin təsiri danılmazdır.

Fransada L.N.Tolstoyun yaradıcılığı xüsusi populyarlıq qazanmışdır. Onun bu təsiri bir neçə mərhələlərdən keçmiş və zamanla imtahan edilmişdir. Belə ki, XX əsrin sonuncu onillikləri mütərəqqi fransız yazıçı-naşirləri Honkur qardaşları və Emil Zolyanın naturalizmi müqabilində onun realistik dünyagörüşünü qəbul etdilər.

Sonralar isə o, sülh, müstəqillik və sosial ədalət uğrunda mübarizə aparan yazıçıya çevrildi. 1920-1940-ci illərdə L.N.Tolstoy haqqında artıq, ilk növbədə, ana dilinin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirən, dəyərli söz ustası kimi danışmağa başladılar. XX əsrin ikinci yarısında, tənqidçilər L.N.Tolstoyun R. Rollanın, M.dü Qarın və E.Bazenin ailə silsilə romanlarına təsirini araşdırmağa başladılar, onun sevgi, evlilik və ailə ideyalarının bərpasını sezdilər.

Tolstoyun ideyalarının bu rakursdan qavranmasının qanunauyğunluğu qarşılıqlıdır. 1850-ci illərin sonundan Tolstoy, Fransanı hərfi mənada özü üçün kəşf edir. O, müxtəlif tərcümə olunmuş mənbələr vasitəsilə məşhur alimlər Sen-Mark Jirarden, Eduard-Rene Laqulenin, Antuan Bodrilyarın, səyyah Ksavye Marmyenin, romanist Lui Yulbakın, müğənni Pyer Duponun, görkəmli yazıçılar A. Düma, P.Merime və digərləri yaradıcılıqları ilə tanış olur.

L.N.Tolstoyun rəssamlar və tədqiqatçılarla belə birbaşa əlaqələri, əhəmiyyətli dərəcədə, Erve Bazenin “Rezo ailəsi” (“Ovuc içində ilan”, “Atın ölümü”, “Bayquşun qışqırığı”) və “Ailə həyatı” kimi, irihəcmli ailə toplusunda psixoloji xarakter ideyaların inkişafına təsir göstərmişdir. E.Bazen özü etiraf edirdi ki: “Mən rus klassikasını sevirəm, Lev Tolstoyu, Çexovu, Turgenevi zövqlə oxuyuram. Nəyə görə sevirəm? İnsana sevgisi üçün, ədalətə susadıqlarına, zorakılığı rədd etdiklərinə görə. Dərin alicənablığa görə. Rus klassikası humanistdir və yüksək formada sosialdır”[8]. Müharibədən sonrakı dövrdə rus dilinə tərcümə olunmuş dördcildli seçilmiş əsərlər nəşrində Erve Bazen, sovet oxucusu üçün bildirirdi ki: “Bir realist-yazıçı olaraq, mən ilk növbədə, həm də özümü mənim yaşadığım vaxtda, mənim ölkəmdə mövcud cəmiyyətin obyektiv təsvirini vəzifəsinidaşıyan, (sözün geniş mənasında) bir moralist hesab edirəm. Məhz buna görə də, mən qəhrəmanlarımı elə hərəkət etməyə vadar edirəm və elə bir davranış modeli və situasiyaları yaradıram ki, hər kəs bu və ya digər şəkildə özünü tanıya bilsin və lazımi dərs götürsün [9]. Biz bu sxemləri L.N.Tolstoyun adı çəkilən əsərlərində təqdim olunmuş uğursuz ailələrin nümunələri ilə müqayisə etmişik.

---

[8] Базен Эрве. Во что я верю: Эссе. Избранные статьи. Издание 3-е. М.: Известия, 1984, с 113.
[9] Elə orada s. 26.

Lakin aydındır ki, model yalnız nəzəri köməkdir və o, Rusiya klassiklərinin fəlsəfi prinsiplərinin yaradıcılıq transformasiyalarını, xüsusi olaraq isə ayrı-ayrı reminissensiyaların, allüziyaların, bədii nüansların və s. qeyd olunmasını ifadə edən süjetlə bağlı məsul qərarların qəbul edilməsinin qənaətbəxş izahı ola bilməz. Qeyd edək ki, hazırkı dissertasiyada söhbət L.N.Tolstoy yaradıcılığının realist motivlərinin kor-koranə və mexaniki yamsılanmasından getmir, belə ki, bu, "Rezo ailəsi" və "Ailə həyatı" əsərlərində heç bir real təsdiqini tapmır. Əksinə, biz belə qənaətə gəlmişik ki, ailə silsiləsinin yaranmasının praktik bacarıqlarını Bazen, bir tərəfdən, L.N.Tolstoyun fəlsəfi və mənəvi-etik görüşlərindən, digər tərəfdən, XIX-XX əsrlərin əvvəlki fransız realist ədəbiyyatının zəngin təcrübəsindən istifadə edə bilərdi. Başqa sözlə, E.Bazen sadalanan fransız yazıçılarının çoxsaylı qabaqcıl ideyalarını dərin və hərtərəfli mənimsəmişdir. Lakin L.N.Tolstoy özünün təkamül prosesində inkişaf etdirilmiş "qəlbin dialektikası", ailə dağılmasının səbəblərinin göstərilməsində amansız realizmi ilə Bazen üçün yolgöstərən ulduz oldu.

"Dərin şəxsləndirmə, səthi-dəyərləndirici baxışlardan imtina, öz qəhrəman obrazlarının psixoloji dünyasına nüfuz, insan qəlbinin araşdırılması, reallığın dürüst təhlili və eyni zamanda fransız ailəsinin maraqlarının müdafiəsi, onda üstünlük təşkil edən milli xüsusiyyətlər kimi müsbət başlanğıcın vurğulanması" – bu, məhz, XX əsr fransız realist, ilk növbədə, E.Bazenin simasında ailə romanı üçün əsas oriyentirlərdir.[10] Aydındır ki, E.Bazen Tolstoya müraciət edərək, rus yazıçısının ailə-məişət mövzusunda yazılmış bütün romanlarında tətbiq etdiyi incə psixoloji təhlil, məhz Tolstoya məxsus olan "dərin şəxsləndirmə" prinsipindən kənarda qala bilməzdi. Bu, tolstoycasına təsir E.Bazenin iki kitabının bütün bölmələrində hiss olunacaq qədər nəzərdən keçirilir, baxmayaraq ki, materialın ötürülməsinin metod və formaları bəzən fərdi yanaşma ilə fərqlənir və bu isə tədqiqatın ikinci fəslinin mövzusudur.

**İkinci fəsil** (*"L.N.Tolstoy və E.Bazenin əsərlərində ailə problemi və onun süjet həlli. "Anna Karenina", "İvan İliçin ölümü", "Kreyser sonatası"; "Rezo*

---

[10] Мамедханова Н. Дж. Французский роман 70-90-х годов XX века: Поиски концепции новой жизни и героя. Баку: Мутарджим, 2010, с.15

*ailəsi", "Ailə həyatı"*) iki bərabər hissəyə bölünmüş yarımfəsillərdən ibarətdir. Birinci yarımfəsil ("L.N.Tolstoy və E.Bazenın dünyagörüşümdə "ailə" konsepti") L.N.Tolstoy və E.Bazenın təqdimatında "ailə" konseptinə həsr olunmuşdur. Növbəti yarımfəsil məntiqi olaraq yalnız bədii-assosiativ əlaqələr sistemində tədqiq olunmuş eyni problemi davam etdirir. Belə ki, fəsildə tədqiq olunan əsərlər müqayisəli aspektdə təhlil edilir.

İlk növbədə, onların romanlarında öz əksini tapmış fikirlər müqayisə edilir və ya qarşılaşdırılır. "Anna Karenina"nın yuxarıda göstərilən faciəvi koloritliyinə baxmayaraq, bu roman dünya ədəbiyyatşünaslığında həyatverici əsər kimi təsdiq olunmuşdur. O, özü ilə ailə problemi vasitəsilə əslində bütöv dövrü əks etdirən ölməz əsərlərin qalereyasını açmışdır. L.N.Tolstoyun romanı, eləcə də adları çəkilən hekayə və povestləri kimi, rus ədəbiyyatında "ailə" konseptinin yeni bir səhifəsini açmışdır. Bu fəsildə, müfəssəl surətdə sübut etməyə çalışdığımız kimi, Bazen nəinki fransız, eləcə də dünya ədəbiyyatında "tolstoyçular"ın ən ardıcıllarından biri olmuşdur.

Ailə mövzusu onun bir çox romanlarının əsasını təşkil edir. Onların arasında ən məşhurları "Rezo ailəsi", "Ailə həyatı", "Başı ilə divara", "Alova yağ", "Sevdiyim şəxs", "Oğul naminə", "Madam Eks", "Atalar məktəbi"dir. Bu əsərlər tənqidçilər tərəfindən yüksək qiymətləndirilir və Bazeni "ailə romanisti" («le romancier de la famille») kimi müəyyənləşdirən öz bədii-üslub keyfiyyətləri ilə seçilir. İlk iki əsər bizim təhlil üçün seçilmişdir. Başqalarından fərqli olaraq, "Rezo ailəsi", "Ailə həyatı", ilk növbədə, bir çox rus və Avropa alimlərinə görə, müasir fransız ailəsinin formalaşmasının əsasları haqqında aydın fikir yaradır. İkincisi, bizim fikrimizcə, bu iki kitab, ailə probleminin tədqiqində öz əksibi tapan L.N.Tolstoy fəlsəfəsinin təsirini aydın şəkildə göstərir. Lakin, "Rezo ailəsi", "Ailə həyatı", öz dünyagörüşünə görə bir-birinə qarşı duran fərqli qəhrəmanların təsvir edilən müstəqil əsərlərdir.

L.Tolstoyun yaradıcılığında olduğu kimi, E.Bazenin də diqqət mərkəzində insan şüuru, "onun qəlbinin epopeyası" durur. Onların ailə epopeyalarında qəhrəmanlar tarixi hadisələrin axınına aktiv şəkildə cəlb olunurlar. Belə janr formasının romanlarında iştirak edən şəxslər öz mənəvi inkişafında dönüş dövrünü

yaşayır, bununla belə onların xarakterlərinin təşəkkülü adətən milli-tarixi miqyaslı hadisələrə tabedir.

Hər bir ailə trilogiyasında ilk növbədə sevgi, nigah, ər-arvadın ikitərəfli münasibətləri və uşaqların tərbiyəsi problemləri durur. Eyni zamanda, Tolstoy və Bazendə geniş epik lövhələr mütləq şəxsi və tarixi sintezi tələb edir. Ailə romanlarında şəxsiyyətin başlanğıcı ümumi, tarixi başlanğıcla şərtlənir. Ailəli insan özünü böyük bir bütövün kiçik bir hissəciyi kimi dərk edir. Lakin, müəyyən bir fərq var: L.Tolstoyun əsərlərində o, daha yaxşı həyat axtarışında mövcud olduğu ictimai mühitin tələblərini, hətta onlar qəhrəmanın mənəvi-etik ideallarına mənfur olsa da, tamamilə inkar etmir, belə ki, istər-istəməz həmin ictimai-mühitə sürüklənir. Unutmaq olmaz ki, ailə mövzusunun inkişafında Tolstoy üçün əxlaqi / qeyri-əxlaqi kateqoriyalar həlledici əhəmiyyəti özündə saxlayır. Faktiki olaraq, onlar ailə və nikah məsələləri ilə bağlı yazıçının bütün digər ideyaları üzərində üstünlük təşkil edir. Onun ardıcıl olaraq insanları bu paradiqma vasitəsilə qiymətləndirməyi və bununla da onların yolunu və taleyini müəyyənləşdirməyi yekdilliklə tənqidçilər tərəfindən tanınır. Mənəvi ideala can atma və bu prosesə mane olan səbəblərin müəyyən edilməsi L.N.Tolstoy üçün ailə anlayışının əsasını təşkil edir. E.Bazenin yaradıcılığında bu aspekt bir az zəif verilir. Belə ki, hər hansı bir fransız ailəsində münasibətlərin saxlanılması və ya yeni və daha sağlam əsaslarla yenidən qruplaşması üçün əl yeri qalır.

Bizim fikrimizcə, L.N.Tolstoydan E.Bazenə doğru uzanan daha düzgün və məqsədəuyğun əsas tematik mövzu “qəlbin dialektikası”nda əks olunur. Bu hamıya məlum olan realist üsul rus yazıçısının çoxsaylı əsərlərinin ölçü meyarıdır. Amma ailə problemlərinin inkişafında o, fərdi xüsusiyyətlər əldə etmişdir. Belə ki, “Anna Karenina” romanında müəllif, mahiyyətcə, rəvayətçinin nitqini minimuma endirərək, qəhrəmanı özü mühakimə etmir. Məsələn, “Hərb və sülh” əsərində hakim mövqe təşkil edən müəllifin şərhləri demək olar burada yoxdur. Eyni zamanda, insanlar və hadisələrin qiymətləndirilməsinin mənəvi davranışı hərəkətlərdən, əsas qadın qəhrəmanının faciəsinin iştirakçıları arasında qarşılıqlı münasibətlərdən irəli gəlir.

Eyni psixoloji hərəkətverici qüvvə E.Bazenin trilogiyasında da baş verir. Eyni iştirak edən qəhrəmanların müxtəlif rakurslarda və həyati hallarda oxucunun göz qabağında durması prinsip etibarilə üst-üstə düşür. Onlar bir-birilərini müxtəlif formada mühakimə edirlər. L.N.Tolstoy və E.Bazenin ailə romanlarında nəsihətçiliyə, müəlliflərin öz fikirlərinin zorla yeridilməsinə demək olar ki, rast gəlinmir. Bu, əlbəttə, o demək deyil ki, müəllifin səsi pərdə arxasında səslənmir. Bununla belə, nəticədə oxucu və yazıçının fikirləri müxtəlif *pro* və *contra* toqquşması baxımından müzakirəyə qoyulur. Bunun əsasında Tolstoy və Bazenin "obrazlarının rentgenoskopiyası" durur.

Amma bu profilaktik əməliyyatın öz xarakteroloji özəllikləri var. Belə ki, L.N.Tolstoyun yaradıcılığında yalnız "Uşaqlıq", "Yetkinlik", "Gənclik" trilogiyası aydın avtobioqrafik xarakter daşıyır; E.Bazenin klassik ailə epopeyasında əsas diqqət yalnız bioqrafik faktlara yönəlib. Bundan başqa, bu faktlar valideynlərin mənfi təsiri altına düşmüş insanların əhval-ruhiyyəsinə uyğunlaşır. Belə ki, ağırlıq mərkəzi fransız yazıçısı tərəfindən qəhrəmanların daxili həyatına aid edilir. Əslində, məişət mövzusunun bu qarşılıqlı qərarı E.Bazenin romanlarında ailə konseptinin başlanğıcıdır.

Bazenin fikrincə, ailə ocağı elə bir sahədir ki, orada insan mikroskop altında, daim dəyişən formada, ruh yüksəkliyi və ruh düşgünlüyü ilə, bayağılıq və qeyri-adiliklə gözdən keçirilməlidir. Bu isə bənzərsiz fərdi şəxsiyyət stilini təşkil edir. E.Bazeni tez-tez ailədə insanın canına hopdurulan, onun münasibətləri və vərdişlərini formalaşdıran, ləngliklə, yeknəsəqliklə, gündəlik mənasız şeylərlə və qayğılarla davam edən adi həyat cəlb edir. Belə gündəlik adi həyatda hər hansı kiçik hadisə və ya müntəzəm məişət faktı simvolik, rəmzi xarakter daşıyır və gizli emosiyalar, qəlbin kompleks hərəkətlərinin çalarları ifadə olunur.

Lakin xarakterin nüanslarına hərtərəfli və diqqətli baxış hərfi mənada yenilik deyil. Biz hesab edirik ki, E.Bazen bu metodu Tolstoydan mənimsəyib. 21 mart 1898-ci Tolstoy gündəlikdə yazmışdı: "Peepshow adlı ingilis oyuncağı var – şüşə parçası altından gah bir, gah digəri görsənir. İnsanı məhz belə göstərmək lazımdır...".[11]

---

[11] Толстой Л.Н. Юбилейное издание сочинений в 90-та томах. М.: АН СССР, 1958, т.53, с. 188

Belə ki, E.Bazenin əsərlərindəki ideyaya görə, hər bir ailədə insanın xarakter və hisslərinin inkişaf etdiyi qarşılıqlı münasibətlərin müşahidə edilməsi mümkündür. Həyatın adi axarının arxasında müxtəlif mövqelərin dramatik toqquşması gizlənə bilər. Bundan əlavə, ailə özünün dəyişmək qabiliyyəti ilə müəllif tərəfindən mədəni-tarixi tərəqqinin göstəricisi kimi qəbul edilir. E.Bazenin "Nəyə inanıram" adlı esse məcmuəsində oxuyuruq: "Hər bir ailənin daxili strukturu şəklini dəyişir, bu proses tam mənası ilə gözümüzün qarşısında baş verir".[12] Bu nəzəri müddəalar ikinci fəslin sərlövhəsinə qoyulan romanların əsasını təşkil edir; fəslin ikinci yarımfəslində onlar müqayisəli-tipoloji təhlilin gedişində öz əksini tapmışdır.

"E.Bazenin və L.N.Tolstoyun obraz-assosiativ sisteminin müqayisəsində ailə problematikası ("Rezo ailəsi" trilogiyası, "Ailə həyatı", "İvan İlyiçin ölümü", "Kreytser sonatası", "Anna Karenina")" adlanan dissertasiyasının ikinci fəslinin son hissəsində E.Bazenin və L.N.Tolstoyun ailə-məişət problematikası obraz-assosiativ müqayisə planında verilmişdir. Burada "Rezo ailəsi" trilogiyasının və "Ailə həyatının" ikinci və üçüncü kitabının tənqidi təhlili verilmişdir. Dissertasiya işində müqayisə və kontrast sistemi aşağıdakı kimi verilir: bir tərəfdən, L.N.Tolstoyun əsərlərində ailə problematikası ilə tematik paralellər aparılmışdır; digər tərəfdən, isə "Rezo ailəsinin" bəzi süjet xətləri "Ailə həyatı" romanının birbaşa nəticəsi idi. Burada, E.Bazenin adı çəkilən romanlarında ailə mövzusunun assosiativ və ya birbaşa müqayisə ilə L.N.Tolstoyun hekayələrində, povest və romanlarında xarakterlərin təsvirində realistik prinsiplərin öz əksini tapması göstərilmişdir. Belə ki, ikinci fəslin ikinci bölməsində Tolstoyun və Bazenin müvafiq mövzuya aid əsərlərində oxşar və fərqli cəhətlərini göstərərək tədqiqatın əsas məqsədinə nail olunmuşdur.

Bu yarımfəsildə araşdırılmış obraz-assosiativ müqayisə sistemi şəxsiyyətin daxili aləminin sevgi harmoniyasından ailə ahəngsizliyinə və ya xarakterlərin dramına keçməsi göstərilmişdir. Bunlardan birincisi Tolstoy və Bazendə ayrı-ayrı faktlar şəklində təsvir edilmişdir: məişət və sosial qarışıqlıqlar əvvəl uğurlu hesab edilən ailələrdə nifaqa gətirib çıxarır. İkincisini dedikdə isə, L.N.Tolstoyun

---

[12] Базен Эрве. Во что я верю: Эссе. Избранные статьи. Издание 3-е. М.: Известия, 1984, с.186

yaradıcılığında məhşur "qəlb və ürək" psixoloji hərəkatı nəzərdə tutulur. Çünki bir sıra obyektiv səbəblərdən ailə alınmadısa, bu dramatik vəziyyətin sonu, sadəcə kübar cəmiyyətdə zahiri abırın qorunması xətrinə, qeyri-müəyyən vaxta qədər təxirə salınır.

Lakin, bir sıra fərdi xüsusiyyətlər, bizim fikrimizcə, göz qabağındadır. Məsələn, E.Bazenin "Ailə həyatı" romanının L.N.Tolstoyun "Kreytser sonatası" povestindən əsas fərqi, birinci əsərdə böhrandan çıxış yolunun olmasındadır. "Kreytser sonatası" povestində isə heç bir ortaq məxrəc olmadığından Tolstoy görə, ayrılma qaçılmazdır. Sevgi yoxdursa, deməli sülh və əmin-amanlıqda yoxdur – bu povestin əsas tezisidir. Bundan başqa, povestin mərkəzi xarakteri Pozdnışev təhkiyyə boyu evlilik, sevgi və ailə ilə bağlı əqidəsini dəyişmir. Bu o səbəbdən baş verir ki, L.N.Tolstoyu, əsasən sevgidə daxili həddin olub-olmadığı, nigah quranların münasibətdə olması və ya sevgi əlaqələri olan insanların ailə qurmasının zəruriliyi maraqlandırır. Bəlkə bu əlaqələr xaotikdir, təsadüfidir? L.N.Tolstoyun qəhrəmanlarının şəxsi fəlakətinin labüdlüyü yalnız soyuq ağıl, quru hesablamalar əsasında və təcrübə ilə diktə olunmamışdır, bu həm də ağrılı-acılı axtarışların, yazıçının taleyinin, müəyyən həyat təcrübəsinin nəticəsi idi. Lakin, ideyalar, mistisizm və fatalizmdən uzaq olaraq, açıq-aşkar tənqidi realizm çərçivəsində verilmişdir.

E.Bazen, bizim fikrimizə görə, məhəbbətdə həqiqət axtarışı prosesini ləngidir. Nəticə etibarı ilə, onun yaradıcılığının ailə problematikasında vurğular bir qədər fərqli qoyulmuşdur. Fransız yazıçısının qəhrəmanları tez-tez daxili azadlıqlarını yaxınlarının münaqişələri vasitəsilə əldə edirlər. Barışmaz ziddiyyətlər yalnız uşaqların yetkinlik yaçına çatmasından sonra aradan qaldırılır. Bu zaman Bazen retro üsula müraciət edir: bir qayda olaraq, hər şey öz yerini tutur, yeni ailələr yaranır və bu ailələrin üzvləri keçmişin səhvlərini təkrarlamamağa çalışırlar. Eyni zamanda, qeyd etmək istərdik ki, E.Bazenin "Atın ölümü" və "Bayquş qışqırığı" romanlarının qəhrəmanları eyni keşmə-keşli axtarış yolunu keçirlər.Əsas qəhrəmanların dayanıqlığı yazıçını darıxdırır. Əlbəttə, bədii əsərdə elə hallar olur ki, hadisələrin sonluğu müəllifdən asılı olmayaraq cərəyan edir. Həyat məntiqi və

müəllifin nəzərdə tutduğu ideya hər zaman üst-üstə düşmür. Bu halda E.Bazen, ailə-məişət münasibətlərinın statik qapalı dünyasını və hərəkətdə olan cəmiyyətin əhəmiyyətli ideyalarını birləşdirməyə çalışır. Nəsillər dəyişdikcə, keçmişdən gələcəyə keçid ifadə olunur. Belə ki, nəsillərin dinamik dəyişikliyi vasitəsilə göstərilən Rezo ailəsinin həyatı, daha geniş sosial reallıq kontekstinə uyğunlaşır.

Belə bir qənaətə gəlirik ki, Bazenin bu antistatikasında Tolstoyun əsərlərinin mətninin strukturu ilə müəyyən yaxınlıq vardır. Məsələn, əgər "İvan İlyiçin ölümü" hekayəsinin birinci hissəsində qəhrəmanın gündəlik narahatlığı və qayğıları haqqında danışılırsa (dövlət qulluqçularının sosial statusuna uyğun olaraq, məhkəmə iclasında otururlar, qonaq gedirlər, vist oynayırlar, teatr lojalarında otururlar), kulminasiya nöqtəsi və final tamamilə fərqlidir. Bu lirik-etiraf xarakteri daşıyır. İvan İlyiçin gözü önündən onun "səhv" ailə həyatı keçir.Və ya Pozdnışevin hekayəsi ("Kreytser sonatası"), bir böyük monoloq kimi qurulmuş, əslində isə, daha çox tövbəyə bənzəyən. Qəhrəman həbsxanadan çıxdığına baxmayaraq, heç dəyişməyib, hər halda qohumbazlıq prinsiplərinə bəraət qazanmaq üçün ətrafdakılardan dəstək gözləyir. Artıq ölməkdə olan Annada etiraf etməli olur.

E.Bazenin trilogiyası da, lirik-etiraf romanının xüsusiyyətlərini özündə cəmləşdirir, əsərdə bütün təhkiyə boyu qəhrəmanın xarakterindən bəhs olunur. L.N.Tolstoyun əsərlərindəki kimi, kompozisiyanı əsas qəhrəmanın formalaşmasının mərhələləri təşkil edir. Qəhrəmanın dünyagörüşünün təkamülü keçmişlə daimi əlaqələrdən asılıdır, və onun mənəvi-etik xarakterli mövqeyindən, anası ilə ikili rəqib münasibətlərindən olaraq dəyişir. Bundan başqa, trilogiyanın xarakteri Tolstoyun istifadə etdiyi retro üsulu ilə bağlıdır. "Atın ölümü" və "Bayquşun qışqırığı" romanlarında xüsusi çərçivələrdən kənara çıxan və simvolik məna kəsb edən, ömrünü başa vurmuş və yeni inkişaf etməkdə olan nəsillər arası mübarizə və münaqişənin mənşəyi göstərilir.

Lakin, bütün qeyd olunanlarla yanaşı, Erve Bazenin əsas qəhrəmanı Jan yalnız realistik tərəfdən deyil, həm də naturalistik baxımdan göstərilir. Müəllif onun uşaqlığını, yeniyetməliyini, gəncliyini, yetkinliyini, o cümlədən onun yaşlanmasını və üçüncü nəsildə ailə xoşbəxtliyini əldə etməsini, əhatə edən həyatının kiçik detallarını

da təsvir edir. Bununla bərabər, əsas qəhrəman anasının nifrət hissini də öz üzərinə qəbul edir. Onun həyat yolunun mərhələlərini üsyan və itaət, aqressivlik və əmin-amanlıq birləşdirir. Ailə mövzusu və janr strukturu özü-özlüyündə əsas qəhrəmanın həyatının son mərhələsinin ideya-fəlsəfi təşəkkülünü göstərməyə imkan verir.

Tarixi zaman dinamikası şəxsi həyat sabitliyi ilə əvəz olunur. Belə ki, burada zaman, təbiət qanunlarına və onun daimi olaraq təkrarlanmasına yönəlmişdir. Hadisələrin bir-biri ilə sıx əlaqəsi trilogiyanın bədii-stilistik bütövlüyünü təmin edir. Trilogiyanın hissələri cərəyan edən hadisələrin gərginliyi, tonallığı, obraz və simvolika planı baxımından, müxtəlifliyi ilə seçilirlər. Erve Bazen bir ailənin xronikasını aparır, onun maraqları şəxsi münasibətlər sahəsinə yönəldilmişdir. Lakin, xüsusi həyatın gizliliyinin qorunması prioritetləri və fərdi düşüncələr, əsas qəhrəmanın şəxsi həyatını tarixi realiyalarla uzlaşdırır.Bu realiyalar, əsasən, qəhrəmanın anası qarşı yönələn üsyanın müxtəlif modifikasiyalarında özünü biruzə verir.

Və burada da Erve Bazen, L.N.Tolstoyun təsirindən yan keçməmişdir. “Rezo ailəsi” romanındakı kimi, “Ailə həyatında” da, Erve Bazen, Tolstoyun ailənin toxunulmazlığı prinsiplərinin təsdiqi fikrinə gəlir, çünki nəslin gücləndirilməsi amili yazıçı üçün çox vacib idi. Keçmişin hakimiiyyətini inkar edərək, müəllif, Tolstoy kimi, nəsillərin bir-birini əvəz etməsində ailə əlaqələrinin qüvvədə olduğunu qəbul edir. Bundan başqa, L.N.Tolstoyun həyat və ölüm qanunları qarşısında bütün insanların bərabərliyi şüarına sadiq qalaraq (“İvan İlyiçin ölümü”), E.Bazen, əcdadların və gələcək nəsillərin birgə şəkildə insanda təbii dirçəlişini iddia edir. Belə ki, hər iki yazıçının fəlsəfi əsaslandırması eynidir, fərq yalnız Tolstoyun bir sıra əsərlərindəki ailə münaqişələrinin daha sərt və qətiyyətli psixoloji durumunun yumşaldılmasındadır.

**«Nəticə»də** tədqiqatın nəticələri xülasə edilir, dissertasiyanın əsas müddəaları ümumiləşdirilir.

**Dissertasiya ilə bağlı aşağıdakı tezis və məqalələr çap olunmuşdur:**